**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**

AZ 1005, Bakı şəhəri,
Gənclər meydanı, 3

(+994 12) 599 -77 -75/76/77
info@ahik.org
www.ahik.org

**Azərbaycan Auditorlar**
**Palatasının sədri**
**cənab Vahid Novruzova**

5 dekabr 2025-ci il tarixli,
10-1/2-682/2025 nömrəliyə

Azərbaycan Auditorlar Palatasının yaradılmasının 30 illiyi ilə əlaqədar təbrik məktubu

**Hörmətli Vahid müəllim!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Auditorlar Palatasının yaradılmasının 30 illiyi münasibətilə ölkəmizin həmkarlar ittifaqlarının üzvləri və öz adımdan təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə qəbul edilmiş “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə audit institutunun formalaşması və inkişafı üçün möhkəm hüquqi baza yaradıb. 1996-cı ilin aprelindən fəaliyyətə başlayan Auditorlar Palatası ötən dövr ərzində müstəqil maliyyə nəzarətinin əsas institutlarından birinə çevrilərək təsərrüfat subyektlərinin və auditorların qanuni maraqlarını qoruyan nüfuzlu qurum kimi tanınıb.

Təşkilatın adı: Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
Sənədin elektron imzalanma tarixi: 16.02.2026
Sənədin qeydiyyat nömrəsi: 16-1/2-91/2026
İmzalayan şəxs: Məmmədov Sahib Əli - Sədr

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Cənab Prezident İlham Əliyevin maliyyə intizamının möhkəmləndirilməsinə və hesabatlılığın artırılmasına göstərdiyi xüsusi diqqət Auditorlar Palatasının fəaliyyətinə geniş imkanlar açır.

Bu imkanlardan yararlanaq Auditorlar Palatasının fəaliyyətinin müasir çağırışlara, dövrün trendlərinə uyğun olaraq təkmilləşdirilməsi, beynəlxalq audit standartlarının tətbiqi və auditorların peşəkarlıq səviyyəsinin yüksəldilməsi quruma ictimai etimadı daha da artırır.

Yaranmasının 30 illiyini şərəflə qeyd edən Azərbaycan Auditorlar Palatası bu önəmli sahənin inkişafında, maliyyə şəffaflığının təmin olunmasında və sağlam biznes mühitinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Bu uğurlar Sizin peşəkar rəhbərliyinizin, elmə əsaslanan zəngin təcrübənizin və kollektivinizin fədakar əməyinin nəticəsidir.

Əminik ki, Azərbaycan Auditorlar Palatası bundan sonra da səmərəli fəaliyyəti ilə ölkəmizin iqtisadi tərəqqisinə, maliyyə nəzarətinin daha da gücləndirilməsinə layiqli töhfələr verəcəkdir.

Bu yolda Sizə və Azərbaycan Auditorlar Palatasının kollektivinə uğurlar arzulayır, yubileyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

**Hörmətlə,**

**Sədr** **Sahib Məmmədov**

Təşkilatın adı: Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
Sənədin elektron imzalanma tarixi: 16.02.2026
Sənədin qeydiyyat nömrəsi: 16-1/2-91/2026
İmzalayan şəxs: Məmmədov Sahib Əli - Sədr

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.